**2024/2025-cü tədris ilinin payız semestri üzrə SABAH qruplarının müvafiq ixtisasları üzrə vakant fənlər**

| ATM | Təhsil səviyyəsi | Fənn | Fənnin məqsədi | Semestr | Tədris yükü | Kurs | Tədris dili | Fənnin kateqoriyası | Ixtisas |
|---|---|---|---|---|---|---|---|---|---|
| ADPU | Magistratura | Tədqiqat metodları və akademik etika 1 | Fənn Tədqiqat I və Tədqiqat II şəklində tədris ediləcəkdir. Elm fəlsəfəsinin əsas anlayışları və ideyaları; elmi tədqiqat metodlarının təsnifatı, keyfiyyət və kəmiyyət əsaslı tədqiqat metodlarının fərqi və əsas xüsusiyyətləri; elmi tədqiqat prosesinin məntiqi, tələbləri və mərhələləri; elmi tədqiqatda etik prinsiplər; və tədqiqat fəaliyyətində onlara riayət etmək. Kəmiyyət (anket sorğusu, eksperminet və s.) və keyfiyyət (müsahibə, müşahidə, fokus qrup müzakirəsi, kazusların müfəssəl tədqiqi | Payız -1 | 75 | I | Azərbaycan | İxtisas fənni | Təhsildə qiymətləndirmə və monitorinq |

| ATM | Təhsil səviyyəsi | Fənn | Fənnin məqsədi | Semestr | Tədris yükü | Kurs | Tədris dili | Fənnin kateqoriyası | Ixtisas |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | | və s.) tədqiqat metodlarının məlumat toplama alətləri, hazırlanması, toplanan datanın kodlaşdırılması. | | | | | | |
| ADPU | Magistratura | Sosial elmlərdə statistika və data analizi -1 | Fənn Statistika I və Statistika II şəklində tədris ediləcəkdir. (1)Təsviri statistikaya giriş. Məlumatların ümumiləşdirilməsi və təqdim edilməsi üsulları; Mərkəzi meyllilik və variasiya; korrelyasiya və xətti reqressiya ölçüləri; normal paylanma, ehtimal və hipotez testinə giriş; (2) Nəticəyönümlü statistika; hipotez testləri və tətbiqləri; tək və çox faktorlu dəyişənlərdə variasiya təhlili üsulları; parametrik olmayan testlər; | Payız -1 | 75 | I | Azərbaycan | İxtisas fənni | Təhsildə qiymətləndirmə və monitorinq |

| ATM | Təhsil səviyyəsi | Fənn | Fənnin məqsədi | Semestr | Tədris yükü | Kurs | Tədris dili | Fənnin kateqoriyası | Ixtisas |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | | tək və çox faktorlu dəyişənlərdə kovariasiya analizi üsulları; təkrarlanan verilənlərdə variasiya təhlili; sadə reqressiya analizi; çoxdəyişənli reqressiya analizi; logistik reqressiya təhlili; kəşfedici (EFA) və təsdiqedici (CFA) faktor analizi. | | | | | | |
| ADPU | Magistratura | Ölçmə və qiymətləndirmənin əsasları | Ölçmə və qiymətləndirmə ilə bağlı əsas anlayışlar; ölçmə şkalaları və növləri; ölçmə alətində tələb olunan keyfiyyətlər; etibarlılıq və növləri; validlik və növləri; istifadəyə yararlılıq; klassik və müasir test nəzəriyyəsinə giriş. | Payız - 1 | 75 | I | Azərbaycan | İxtisas fənni | Təhsildə qiymətləndirmə və monitorinq |

| ATM | Təhsil səviyyəsi | Fənn | Fənnin məqsədi | Semestr | Tədris yükü | Kurs | Tədris dili | Fənnin kateqoriyası | Ixtisas |
|---|---|---|---|---|---|---|---|---|---|
| ADPU | Magistratura | Kommunikativ və akademik xarici dil (ingilis dili) | Xarici dildə fikir mübadiləsi aparmaq vərdişlərinə sahib olmalıdır. Xarici dil biliklərindən istifadə edərək komandada işləmə bacarıqlarına yiyələnməldir. Xarici dilin kommunikativlik, sistemlilik, funksionallıq kimi keyfiyyətlərini mənimsəməlidir. Sahəsi üzrə elmi məlumatları xarici dildə şifahi və yazılı formada təqdim etməyi bacarmalıdır. | Payız - 1 | 60 | I | İngilis | Humanitar | Təhsildə qiymətləndirmə və monitorinq |
| ADPU | Magistratura | Ali təhsildə idarəetmə | İdarəetmə nəzəriyyələri və bu yanaşmaların tətbiqinin müəssisələr baxımından təhlili, idarəetmə prosesləri (qərarlaşdırma, planlaşdırma, kommunikasiya, koordinasiya, | Payız - 2 | 75 | I | Azərbaycan | İxtisas fənni | Menecment (Ali təhsilin təşkili və idarə olunması) |

| ATM | Təhsil səviyyəsi | Fənn | Fənnin məqsədi | Semestr | Tədris yükü | Kurs | Tədris dili | Fənnin kateqoriyası | Ixtisas |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | | təşkilatlanma, dəyərləndirmə, hesabat vermə və s.), açıq sistem kimi ali təhsil müəssisəsinin təhlili, ali təhsil müəssisələrində rəhbərlik və liderlik, ali təhsil müəssisələrində müsbət təşkilati mühit və mədəniyyətin formalaşdırılması, öyrənən təşkilatlar və s. kimi mövzular fənnin əsas məzmununu təşkil edir. | | | | | | |
| ADPU | Magistratura | Elmi-tədqiqat metodları və akademik etika I | Fənn davamedici olub iki semestri əhatə edir. Birinci semestrdə əsasən tədqiqat metodları ilə əlaqəli əsas anlayış və prinsiplər, təhsil elmlərində elmi-tədqiqatların əhəmiyyəti, mövzu seçimi, tədqiqat prosesinin mərhələləri olaraq | Payız - 3 | 75 | I | Azərbaycan | İxtisas fənni | Menecment (Ali təhsilin təşkili və idarə olunması) |

| ATM | Təhsil səviyyəsi | Fənn | Fənnin məqsədi | Semestr | Tədris yükü | Kurs | Tədris dili | Fənnin kateqoriyası | Ixtisas |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | | problem vəziyyətinin hazırlanması, ədəbiyyat icmalı, tədqiqat sualının formalaşdırılması, kəmiyyət və keyfiyyət metodları haqqında ümumi anlayışlar, akademik dürüstlük və etika kimi məsələlər əhatə olunur. İkinci semestrdə isə fənnin məzmunu əsasən kəmiyyət və keyfiyyət tədqiqatlarının növləri (məs. skrininq model, situasiya tədqiqatları, fenomenologiya və s.), kəmiyyət və keyfiyyət tədqiqatlarında data toplama və emal etmə prosesləri, tədqiqat nəticələrinin hazırlanması, şərh | | | | | | |

| ATM | Təhsil səviyyəsi | Fənn | Fənnin məqsədi | Semestr | Tədris yükü | Kurs | Tədris dili | Fənnin kateqoriyası | Ixtisas |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | | etmə, tədqiqat hesabatı hazırlama proseslərini əhatə edir. | | | | | | |
| ADPU | Magistratura | Ali təhsil və qlobal problemlər | Fənnin əsas məzmununa qlobal təhsil arenasında baş verən məsələlərin müzakirəsi daxildir. Fənn, ali təhsili formalaşdıran və ona təsir edən bütün faktorları əhatə edir. Ali təhsil və qlobal problemlər fənni ali təhsilin əlçatanlığı və inkluziyası, tələbə qəbulunda baş verən dəyişikliklər, qloballaşma və beynəlmiləlləşmə, Bolonya prosesi, ali təhsilin maliyyələşməsində istiqamətlər, tədqiqat ekosistemi və onun infrastrukutu, | Payız - 4 | 75 | I | Azərbaycan | İxtisas fənni | Menecment (Ali təhsilin təşkili və idarə olunması) |

| ATM | Təhsil səviyyəsi | Fənn | Fənnin məqsədi | Semestr | Tədris yükü | Kurs | Tədris dili | Fənnin kateqoriyası | Ixtisas |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | | rəqəmsal dəyişikliklər, ali təhsilin dayanıqlığı, dayanıqlı inkişaf və ali təhsilin rolu, məşğulluq, sahibkarlıq və bacarıqlar və digər qlobal mövzuları əhatə edir. | | | | | | |
| ADPU | Magistratura | Ali təhsil hüququnun əsasları | Fənn ali təhsil müəssisələrinə tətbiq olunan qanunları, mühüm dövlət sənədlərini, qərarları, eləcə də qanunda dəyişiklikləri müzakirə edir. Fənn, ali təhsil mühitində qanunlara əsaslanaraq qərar qəbul etməyi əhatə edir. Fənnin əhatə dairəsinə həmçinin ali təhsil hüququnun idarə edilməsi, strukturu və tarixi, işçilərin hüquqları, ali təhsilin maliyyələşdirilməs | Payız - 5 | 60 | I | Azərbaycan | İxtisas seçmə | Menecment (Ali təhsilin təşkili və idarə olunması) |

| ATM | Təhsil səviyyəsi | Fənn | Fənnin məqsədi | Semestr | Tədris yükü | Kurs | Tədris dili | Fənnin kateqoriyası | Ixtisas |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | | i, vergilər, araşdırma, müqavilələr və əqli mülkiyyət, tələbə fəaliyyəti və xidmətlərlə və digər məsələlərlə bağlı qanunun araşdırılması daxildir. | | | | | | |
| ADPU | Magistratura | Ali təhsildə yüksək texnologiyaların tətbiqi | Rəqəmsallaşmanın mahiyyəti və təhsildə əhəmiyyəti, ali təhsil müəssisələrində informasiya texnologiyalarının istifadəsi və bu prosesə mane olan amillər, rəqəmsal texnologiyaların tətbiqində menecerlərinin rolu, distant təhsilin məzmunu və ölkəmizdə bu təhsilalma formasının reallaşması vəziyyətinin təhlili, ali təhsil müəssisələrində | Payız - 6 | 60 | I | Azərbaycan | İxtisas seçmə | Menecment (Ali təhsilin təşkili və idarə olunması) |

| ATM | Təhsil səviyyəsi | Fənn | Fənnin məqsədi | Semestr | Tədris yükü | Kurs | Tədris dili | Fənnin kateqoriyası | Ixtisas |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | | istifadə üçün elektron məzmunun hazırlanması, elektron universitet anlayışı, data (verilənlər) bazasının yaradılmasının əhəmiyyəti və əməkdaşların data savadlılığı (verilənlərin qruplaşdırılması, təhlili və s.) kimi məsələlər fənnin məzmununa daxildir. | | | | | | |